# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

### “Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.3.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 fevral 2023-cü il

№ 38

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 6 fevral
tarixli 38 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6-2-ci maddəsinin 4-cü hissəsinə əsasən hazırlanmışdır və tüstü bacalarının istismarında təhlükəsizlik texnikası qaydasını müəyyən edir.

1.2. Tikinti obyektlərinin tüstü bacalarının layihələndirilməsi və tikintisi (quraşdırılması) tikinti obyektinin təyinatına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 23 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı Qaydaları"nın, şəhərsalma və tikintiyə dair normativ sənədlərin, yanğın təhlükəsizliyinə dair qanunvericiliyin və qüvvədə olan qaz təchizatı üzrə layihələndirmə normalarının tələblərinə uyğun həyata keçirilir.

1.3. Tüstü bacalarının işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və (və ya) pozuntuların aşkar edilməsi məqsədilə Qanunun 6-2-ci maddəsinə uyğun olaraq qaz paylayıcısı tərəfindən ildə bir dəfə (hər il noyabrın 1-dək) istehlakçının tüstü bacalarının müayinəsinin keçirilməsi təmin edilməlidir.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Tüstü bacalarının istismarında təhlükəsizlik texnikasına dair tələblər

2.1. Tikinti obyektlərinin tüstü bacalarının istismarında təhlükəsizlik texnikasına dair aşağıdakı tələblər müəyyən edilir:

2.1.1. tüstü bacaları qaz qurğularında yaranan yanma məhsullarının (tüstü qazlarının) atmosferə atılmasını təmin etməli, başqa qurğu və əməliyyatların təhlükəli təsirindən mühafizə olunmalıdır;

2.1.2. istehlakçılar tərəfindən qaz qurğusu işə salındıqdan dərhal sonra və onun istismarı zamanı qazın yanma məhsullarının (tüstü qazlarının) tüstü bacalarına ötürülməsi ilə havanın sorulması yoxlanılmalıdır;

2.1.3. tüstü bacalarının borularının birləşmə nöqtələrində boşluq olmamalıdır və kip olmalıdır;

2.1.4. tüstü bacalarının təmizlənməsi üçün nəzərdə tutulan "ciblərin" vəziyyəti, başlıqlar və kəsiklər yanğın təhlükəsizliyinə dair qanunvericiliyin tələblərinə cavab verməlidir;

2.1.5. yaşayış binalarının mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, binanı idarə edən hüquqi şəxs və fərdi sahibkar (idarəedici təşkilat), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin mülkiyyətçiləri (istifadəçiləri) ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən binanın tüstü bacalarına ildə bir dəfə (hər il iyulun 1-dək) texniki xidmətin həyata keçirilməsini təmin etməli və istehlakçının müvafiq ixtisaslı işçi heyət və ya ixtisaslaşmış podratçı tərəfindən Qanunun 6-3-cü maddəsinin 5-ci hissəsinə uyğun texniki xidmətin nəticəsi barədə akt tərtib edilməli və bir nüsxəsi qaz paylayıcısına təqdim edilməlidir;

2.1.6. dövlət mənzil fondu binalarında tüstü bacalarına texniki xidmətin həyata keçirilməsi balans mənsubiyyəti üzrə balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları) tərəfindən ildə bir dəfə (hər il iyulun 1-dək) Qanuna uyğun olaraq təmin edilməli və texniki xidmətin həyata keçirilməsinə dair tərtib edilmiş aktın bir nüsxəsi qaz paylayıcısına təqdim edilməlidir;

2.1.7. istehlakçılar yaşayış evlərinin tüstü bacalarının işçi vəziyyətdə saxlanılmasını və müayinə keçirilərkən aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün texniki xidmətin ixtisaslaşmış podratçı tərəfindən həyata keçirilməsini təmin etməlidirlər;

2.1.8. istilik enerji qurğularının yerləşdiyi tikinti obyektlərinin tüstü bacalarına münasibətdə əlavə olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın 3.10.3.10-cu yarımbəndi ilə müəyyən edilmiş tələblər yerinə yetirilməlidir.

2.2. Tüstü bacalarının istismarı zamanı istehlakçılara aşağıdakılar qadağandır:

2.2.1. tüstü bacalarının quruluşunu dəyişdirmək, tüstü bacalarının təmizlənməsi üçün nəzərdə tutulan "cibləri" hörmək və ya bağlamaq;

2.2.2. tüstü bacalarına və suqızdırıcıların tüstü ötürücü xətlərində özbaşına əlavə şiberlər (qapaqlar) quraşdırmaq;

2.2.3. tüstü bacalarının təhlükəsiz və etibarlı istismarının təmin olunması məqsədilə müayinə aktı üzrə aşkar edilmiş nöqsan və (və ya) pozuntular aradan qaldırılmadan qaz qurğularından istifadə etmək;

2.2.4. tüstü bacalarından təyinatına uyğun olmayan məqsədlər üçün istifadə etmək;

2.2.5. tüstü bacalarının yaxınlığında yanan materiallardan hazırlanmış əşyalar yerləşdirmək.